

*"BİZƏ YAZIRLAR" rubrikamızın bu dəfəki qəhrəmanı mədəniyyətimizin təəssübkeşlərindən biri Məryəm Əliyevadır. O, Kürdəmirdə dünyaya gəlmiş, orada orta məktəblə yanaşı musiqi məktəbini əla qiymətlərlə bitirdikdən sonra Bakı Mədəni-Maarif Texnikumunun kitabxanaçılıq fakültəsinin qiyabi şöbəsini bitirmişdir. Kürdəmir rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində (MKS) kitabxanaçı, daha sonra Metodika-biblioqrafiya şöbəsində baş kitabxanaçı, 1998-ci ildən indiyədək baş biblioqraf vəzifəsində çalışır. Sözün qədrini, dəyərini bilən Məryəm Əliyeva çoxsaylı məqalə müəllifi, həm də diqqətli oxucudur.*

### Laylalar aləmi

Ana körpəsini basıb bağrına
Həzin-həzin ona laylalar çalır.
Körpəsə sığınıb ana qoynuna
Bu həzin layladan hey xumarlanır.

Dünyanı, həyatı hələ bilməyən,
Çümlə anlamayan, bir söz duymayan,
Şirin laylaların ətrinə batır,
Laylanı eşitcək yaman tez yatır.

Görəsən, laylada nə vardır belə
Körpə dinləyərkən tez xumarlanır ?
Nə qədər ağlayıb, sızlasa yenə
Layla çalınanda o rahatlanır.

Laylalar sehirli aləmə bənzər,
Bütün anaların dilini bəzər.
Körpələr düşəndə bu xoş aləmə,
Çəməndə süslənən qönçəyə bənzər.

Batıb bu laylanın şirinliyinə,
Düşüb bu aləmin dərinliyinə,
Körpə xumarlanır bu laylalardan,
Ana rahatlanır bu laylalardan.

Laylanın mənası, dəyəri ali,
Laylasız həyatın kədəri bəlli.
Layladan güc alıb böyüyən oğul,
Qoruyar Vətəni, namusu, eli...

İstərəm dünyada bütün analar,
Laylalar çalsınlar öz balasına.
Arzusuna çatar o zaman hər qız,
Onda xöşbəxt olar bütün dünyamız.

### İstərəm

Bir aləm istərəm dərddən aralı,
Görməyəm ətrafda qəlbi yaralı,
Sormayalar kim, nəçi, haralı?...
Yatmış ruhu mən oyatmaq istərəm.

Bir məkan gəzirəm qüssəsiz, qəmsiz,
Olsun anaların gözləri nəmsiz.
Günəşli bir həyat... dumansız, çənsiz.
Kədəri, möhnəti atmaq istərəm.
Bir dünya kəşf edəm, sirli-soraqlı,
Qalmaya bircə kəs ürəyi dağlı,
Bir tale yazıla sevgimlə bağlı,
Ecazkar aləmdə bitmək istərəm,

Xeyir qalib gələ, şər çıxa yoxa,
Gözdən ancaq sevinc yaşları axa,
Gənc xanımlar telinə çiçək taxa,
Özümü güllərə qatmaq istərəm...

Bir ürək istərəm sevinc içində,
Yer qalmaya mənə kədər köçündə,
"Göydən düşən alma"ların üçün də,
Cəhd eləyib özüm tutmaq istərəm.

Bir torpaq istərəm odsuz, alovsuz,
Həyat davam edə ələmsiz, lovsuz,
Bir süfrə qalmaya ətsiz, plovsuz,
Yaşam ləzzətini dadmaq istərəm.

Bir röyam var, istəyirəm çin ola,
Dövran bizi sala, başqa bir yola,
Qoymayam bağçamda gül-çiçək sola,
aləmdə itmək istərəm.

Bəxt ulduzum məni gözdən salmasın,
Arzu, ümid ürəklərdə qalmasın,
Gözəllərin yanaqları solmasın,
Yoxsa baş götürüb getmək istərəm.

İllər üstələnir, qocalırıq biz,
Həyat yollarında qalıb gözümüz,
Bitib-tükənməyir ürək sözümüz,
Məryəməm, arzuma çatmaq istərəm!

### Yağışın səsi

Yağışın şırıltısı,
Nəsə, xoş gəlmir mənə.
Eşidəndə bu səsi,
Tamam batıram qəmə.

Ələm, qüssə, kədər, qəm,
Xəyaldayam evdə mən.
Ətrafım çox istidir,
Üşüyürəm amma mən.

Ayrıldım bu xəyaldan,
Başdan çəkildi duman,
Ətraf soyuq deyilmiş,
Ürəyim üşüyürmüş...

### Dil və ürək

Sən sevirəm deyəndə,
Dilim sənə get dedi.
Ürək isə əksinə,
"Nə olar, qayıt", dedi.

Görəsən ürək niyə
Dillə bacara bilmir ?
Bəzən ürək deyəni,
Dil heç söyləyə bilmir.

Qalmışam ürək ilə
Dilin arasında çaş.
Nə olar, ay dil, gəl sən
Ürəkdən keçəni aç.

Bildir ki, getməyini,
Ürək heç vaxt istəmir.
Amma bilmirəm niyə
Dil bunu deyə bilmir ?

**Məryəm Əliyeva**